BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№1 Sosial-siyasi elmlər seriyası 2015*

UOT 343.3

# AZƏRBAYCAN RESPUBLİKASININ MÜLKİ-PROSESSUAL QANUNVERİCİLİYİNİN SİSTEMİ VƏ PRİNSİPLƏRİ

**X.R.QOCAYEV**
***AMEA İnsan Hüquqları İnstitutu***
***xaliq.qocayev@gmail.com***

*Məqalədə Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyinin sistemi və prinsipləri hüquq ədəbiyyatında mövcud fikir müxtəlifliyi və Azərbaycan Respublikasının dövlətdaxili qanunvericiliyi əsasında geniş təhlil edilir. Qeyd edilir ki, mülki-prosessual qanunvericiliyin sistemi mülki-prosessual hüququn mənbələri ilə əlaqəlidir, eyni zamanda, mülki-prosessual hüquq dövlətdaxili hüququn tərkib hissəsi olduğundan, onun sistemi də məhz dövlətdaxili qanunvericiliyin tərkib hissəsini təşkil edən normativ-hüquqi aktlar baxımından nəzərdən keçirilməlidir. Bu mənada məqalədə müəllif Azərbaycan Respublikasının Konstitusiyasının, mülki və mülki-prosessual məcəllələrin, qanunların, Prezident fərmanlarının, Nazirlər Kabinetinin qərarlarının və beynəlxalq müqavilələrin müqayisəli araşdırılmasına xüsusi diqqət yetirir.*

**Açar sözlər:** mülki-prosessual qanunvericilik, konstitusiya, qərar, beynəlxalq müqavilə, fərman, məcəllə, hüquq və azadlıqlar, birinci instansiya məhkəməsi, qanun

Mülki-prosessual qanunvericiliyin sistemi mülki-prosessual hüququn mənbələri ilə əlaqəlidir. Mülki-prosessual hüququn mənbələri dedikdə, mülki-prosessual hüququn normalarını özündə əks etdirən hüquqi aktlar nəzərdə tutulur. Mülki-prosessual hüququn mənbələrinə Konstitusiya, məcəllələr (xüsusilə də, mülki və mülki-prosessual məcəllə), qanunlar, Prezident fərmanları, Nazirlər Kabinetinin qərarları, beynəlxalq müqavilə və sazişlər daxildir.

Azərbaycan Respublikasının (AR) Konstitusiyası Respublikada ən yüksək hüquqi qüvvəyə malikdir. AR Konstitusiyası Azərbaycanın qanunvericilik sisteminin əsasıdır. Bütün qanunlar və digər normativ hüquqi aktlar AR Konstitusiyası əsasında və ona uyğun olaraq qəbul edilir. AR Konstitusiyasının 12, 25.1, 26, 60, 61, 62, 71, 125-132, 148, 149, 151-ci maddələri mülki-prosessual hüquq münasibətlərinin tənzimlənməsinə yönəlmişdir. Bildiyimiz kimi, mülki prosesin əsas məqsədlərindən biri, pozulmuş hüquqların bərpasıdır. Konstitusiyasının 12-ci maddəsində qeyd edilir ki, insan və vətəndaş hüquq-

larının və azadlıqlarının, AR vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədidir. Layiqli həyat səviyyəsinə nail olmaq üçün insanların hüquq və azadlıqlarından layiqincə istifadəsi və həmin hüquq və azadlıqların pozulması zamanı bərpası nəzərdə tutulur. Pozulmuş hüquqların bərpası əsasən ədalət mühakiməsinin yolu ilə məhkəmələr tərəfindən həyata keçirilir. Bu müddəa qanunvericilikdə də öz əksini tapmışdır. Belə ki, Məhkəmələr və hakimlər haqqında AR Qanununun məhkəmələrin vəzifələri adlı 3-cü maddəsində qeyd edilir ki, məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən AR Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını həyata keçirirlər (3). AR Konstitusiyasına əsasən, hamı qanun və məhkəmə qarşısında bərabərdir. Hər kəsin qanunla qadağan olunmayan üsul və vasitələrlə öz hüquqlarını və azadlıqlarını müdafiə etmək hüququ vardır. Dövlət hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verir.

Bununla yanaşı, AR Konstitusiyasında mülki prosesin ən vacib müddəalarından olan hüquq və azadlıqların məhkəmə təminatı, hüquqi yardım almaq hüququ, məhkəmə aidiyyətinin dəyişdirilməsinə yol verilməməsi, insan və vətəndaş hüquqlarının və azadlıqlarının təminatı, məhkəmə hakimiyyətinin həyata keçirilməsi, ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsipləri və şərtləri müəyyən edilmişdir. Bəzi müəlliflərin fikrincə (7, 91), Konstitusiyada ədalət mühakiməsinin həyata keçirilməsinin prinsip və şərtlərinin məhdudlaşdırılmasına cəhd göstərilmişdir. Konstitusiyanın 127-ci maddəsini hərfi baxımdan şərh etsək, həmin maddədə yalnız bir prinsipin – çəkişmə prinsipinin təsbit olunduğu görünür. Aşkarlıq, təqsirsizlik prezumpsiyası və s. isə ədalət mühakiməsinin həyata keçirilməsi şərtləri kimi müəyyən edilmişdir. Belə qənaətə gəlmək olar ki, 127-ci maddənin mətni hazırlanarkən BMT Baş Məclisinin 1985-ci il tarixli Məhkəmə orqanlarının müstəqillinin əsas Prinsipləri (1) adlı Qətnaməsinin müddəaları əsas götürülmüşdür. Bu məsələ AR qanunvericiliyinin beynəlxalq hüquq normalarına əsaslanmasının bir daha sübut edir.

Mülki-prosessual hüquq münasibətlərinin tənzimlənməsi sferasında əsas normativ-hüquqi akt 28 dekabr 1999-cu il tarixli, 780-IQ nömrəli AR MPM-in Təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" AR Qanunu (AR qanunvericilik toplusu, 2000-ci il, № 1, maddə 17) ilə təsdiq edilmiş Mülki-Prosessual Məcəllədir. Mülki proses nəzəriyyəsində mülki-prosessual məcəllə adətən mülki-prosessual qanun kimi adlandırılır. AR Konstitusiyasının normaları AR-in bütün ərazisində ali hüquqi qüvvəyə və birbaşa təsirə malikdir. AR Konstitusiyasının normaları və məhkəmə icraatı qaydasını tənzimləyən normalar arasında ziddiyyət olduqda, AR Konstitusiyasının normaları tətbiq edilir. Mülki prosessual fəaliyyət sahəsində insan və vətəndaşın hüquq və azadlıqlarını ləğv edən və ya məhdudlaşdıran, habelə ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmənin müstəqilliyini və tərəflərin çəkişmə prinsipini pozan, eləcə də sübutlara əvvəlcədən müəyyən olunmuş qüvvə verən qanunvericilik aktları qəbul edilə bilməz.

AR MPM-in 3-cü maddəsi Mülki prosessual qanunvericiliyin zamana və məkana görə qüvvəsi ilə bağlı məsələləri tənzimləyir. Həmin maddədə qeyd edilir ki, məhkəmə icraatı işə baxılan, ayrı-ayrı prosessual hərəkətlər həyata keçirilən və yaxud məhkəmə aktı icra edilən zaman qüvvədə olan mülki prosessual qanuna əsasən aparılır. AR-in ərazisində hər hansı haldan asılı olmayaraq, AR-in mülki prosessual qanunvericiliyi qüvvədə olur. AR-in ərazisindən kənarda AR mülki prosessual qanunvericiliyinin müddəaları AR-in bayrağını daşıyan və yaxud tanınma nişanı olan dəniz, çay və yaxud hava gəmilərində və ya onların olduğu limanlarda tətbiq olunur. AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə AR mülki prosessual qanunvericiliyinin məkana görə tətbiqinin digər qaydaları da müəyyən oluna bilər.

AR MPM-in 4-cü maddəsində müdafiə üçün məhkəməyə müraciət etmək hüququ təsbit edilmişdir. Bütün fiziki və hüquqi şəxslər özlərinin qanunla qorunan hüquq və azadlıqlarını, eləcə də maraqlarını qorumaq və təmin etmək məqsədi ilə qanunla müəyyən edilmiş qaydada məhkəmə müdafiəsindən istifadə etmək hüququna malikdirlər. Məhkəməyə müraciət etmək hüququndan imtina edilməsi etibarsızdır. Əgər qanunla müəyyən kateqoriya iqtisadi mübahisələr üçün məhkəməyə qədər nizamlama (pretenziya) qaydası müəyyən olunarsa və yaxud bu, tərəflər arasında müqavilə ilə nəzərdə tutularsa, mübahisə həmin qaydaya riayət edildikdən sonra inzibati-iqtisadi məhkəmənin həllinə verilə bilər.

Məhkəmələr tərəfindən mülki işlər və iqtisadi mübahisələrin baxılması və araşdırılması qaydasını, başlıca olaraq AR MPM-lə tənzimləyir. Mülki prosessual hüququn mənbəyi kimi AR MPM-in səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, o nəinki mülki mühakimə icraatını, həmçinin iqtisadi və münsiflər məhkəməsinin mühakimə icraatını tənzimləyən normaları özündə əks etdirir. AR MPM-in daxili quruluşu 4 bölməyə ayrılır. Onun birinci bölməsi bütün mühakimə icraatı üçün əhəmiyyət kəsb edən mülki prosessual normalardan ibarətdir. Bu normalar mülki məhkəmə icraatının ümumi hissəsini təşkil edir. AR MPM-in ikinci bölməsində təsbit olunmuş normalar isə işin məhkəmədə aparılmasının ayrı-ayrı mərhələlərini tənzimləyir. Bu normalar mülki məhkəmə icraatının xüsusi hissəsini təşkil etməklə yanaşı, birinci instansiya məhkəməsində icraatla bağlı normaları özündə əks etdirmişdir. MPM-in üçüncü bölməsinə daxil olan normalar məhkəmə aktlarına yenidən baxılması ilə əlaqədar münasibətləri nizamlayır. Bu bölməyə daxildir: apellyasiya instansiyası məhkəməsində icraat, birinci instansiya məhkəmələrinin qərardadlarından şikayət verilməsi, kassasiya instansiyası məhkəməsində icraat, əlavə kassasiya qaydasında icraat, hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar üzrə icraat və qanuni qüvvəyə minmiş məhkəmə aktlarına yeni açılmış hallar üzrə yenidən baxılması üzrə icraatla bağlı normalar.

MPM-in dördüncü bölməsini isə xarici şəxslərin iştirakı ilə əlaqədar normalar təşkil edir. Bura aiddir: məhkəmələrin beynəlxalq səlahiyyətləri, xarici dövlətin məhkəmə qətnamələrinin məcburi icrası, xarici dövlət məhkə-

mələrinin qətnamələrinin tanınması və s. Mülki-prosessual münasibətləri tənzimləyən qanunlara misal olaraq, Məhkəmələr və hakimlər haqqında, Məhkəmə-Hüquq Şurası haqqında, Konstitusiya Məhkəməsi haqqında, İcra haqqında, Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi haqqında qanunları qeyd etmək olar.

10 iyun 1997-ci il tarixli Məhkəmələr və hakimlər haqqında Qanun Azərbaycanda ədalət mühakiməsinin həyata keçirilməsini təmin etmək məqsədilə Konstitusiyasında təsbit olunmuş müstəqil məhkəmə hakimiyyəti yaratmağa yönəlmişdir. Qanun, məhkəmə hakimiyyəti, ədalət mühakiməsinin həyata keçirilməsinə dair əsas müddəalar, məhkəmə sistemi, məhkəmələrin fəaliyyətinin təşkilati təminatı, hakimlərin statusu, təyin edilməsi, səlahiyyətləri, maddi və sosial təminatı, səlahiyyətlərinə xitam verilməsi, intizam məsuliyyəti, andlı iclasçılarla bağlı məsələlər üzrə normalar müəyyən edilmişdir. Respublikamızda ədalət mühakiməsini qanun əsasında yaradılan məhkəmələr həyata keçirir. AR Konstitusiyasının 125-ci maddəsinin VI hissəsinə uyğun olaraq məhkəmələrin səlahiyyətlərinin dəyişdirilməsi məqsədilə müəyyən olunmamış hüquqi üsulların tətbiq edilməsi və fövqəladə məhkəmələrin, eləcə də xarici dövlətlərin, yaxud bu qanunla nəzərdə tutulmayan qaydada məhkəmələrin yaradılması qadağandır (3).

AR məhkəmələrinin fəaliyyəti yalnız ədalət mühakiməsinin və qanunvericiliklə müəyyən edilmiş hallarda və qaydada məhkəmə nəzarətinin həyata keçirilməsinə yönəldilmişdir. Məhkəmələr ədalət mühakiməsini həyata keçirərkən ARı Konstitusiyasında təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını, mülkiyyət formasından asıla olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir, AR-in Konstitusiyasında və bu qanunda nəzərdə tutulmuş digər vəzifələri həyata keçirirlər. Məhkəmələrin üzərinə başqa vəzifələr qoyulması yolverilməzdir. Qanuna əsasən, məhkəmələrdə işlərə birinci instansiya, apellyasiya və kassasiya instansiyaları üzrə baxılır. Azərbaycan qanunvericiliyində nəzərdə tutulmuş hallarda və qaydada Azərbaycan məhkəmələrində işlərə kollegial və hakim tərəfindən təkbaşına: birinci instansiya məhkəməsində işlərə təkbaşına və ya üç hakimdən ibarət tərkibdə, yaxud andlı iclasçılardan ibarət tərkibdə, apellyasiya və kassasiya instansiyası məhkəməsində üç və ya daha çox hakimdən ibarət tərkibdə baxılır. Məhkəmələr işlərə baxarkən AR-in Konstitusiyasını, qanunlarını və digər qanunvericilik aktlarını, eləcə də AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələri rəhbər tuturlar. Məhkəmələrdə işlərə baxılarkən məhkəmə iclasının protokolu aparılır. Məhkəmə iclasının gedişini və məhkəmə istintaqı zamanı aparılan prosessual hərəkətləri qeyd etmək üçün texniki vasitələrdən istifadə edilə bilər. Məhkəmələr baxılmış işlər üzrə AR adından qətnamələr, hökmlər, qərardadlar və qərarlar çıxarırlar. Kassasiya və apellyasiya instansiyası məhkəmələrinin bütün qərarları qəbul olunduğu gündən bir aydan gec olmayaraq dərc edilir və elektron daşıyıcılarda

yayılır. Bu qərarlarla birlikdə aşağı instansiya məhkəmələrinin ləğv edilmiş və ya dəyişdirilmiş qərarları da dərc edilməlidir.

Birinci instansiya məhkəmələrinin qanuni qüvvəyə minmiş qərarları qanunvericiliklə müəyyən edilmiş üsullarla açıqlanır. AR-in qanunvericiliyi ilə müəyyən edilmiş qaydada qanuni qüvvəyə minmiş bu qərarlar ölkə ərazisində bütün fiziki və hüquqi şəxslər tərəfindən mütləq, vaxtında və dəqiq icra olunmalıdır. Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının icra edilməməsi AR qanunvericiliyi ilə nəzərdə tutulmuş məsuliyyətə səbəb olur. Məhkəmələr və hakimlər haqqında Qanunun müxtəlif maddələrində təsbit olunan məhkəmə icraatının açıq aparılması (m. 12); məhkəmə aidiyyətinə riayət edilməsi (m. 15); hakimlərin dəyişməzliyi (m. 97); hakimlərin müstəqilliyi (m. 100); hakimlərin toxunulmazlığı (m. 101) kimi müddəalar bəzi dövlətlərin qanunvericiliyində ədalət mühakiməsinin konstitusion prinsipləri kimi müəyyən edilmişdir (5, 406-411; 6). Bu məsələdə fikir müxtəlifliyi var. E.E.Abrosimova hesab edir ki, hakimlərin toxunulmazlığı məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsi formalarından biridir, hakimlərin dəyişməzliyi isə müstəqilliyin qarantiyasıdır (4, 844-849).

23 dekabr 2003-cü il tarixli Konstitusiya Məhkəməsi haqqında Qanunun 1-ci maddəsində göstərilmişdir ki, AR Konstitusiya Məhkəməsi Konstitusiya ilə onun səlahiyyətlərinə aid edilmiş məsələlərə dair ali konstitusiya ədalət mühakiməsi orqanıdır. Konstitusiya Məhkəməsinin əsas məqsədləri AR Konstitusiyasının aliliyini təmin etmək, hər kəsin hüquq və azadlıqlarını müdafiə etməkdir. Konstitusiya Məhkəməsinin fəaliyyəti AR Konstitusiyasının aliliyi, müstəqillik, kollegiallıq və açıqlıq prinsipləri əsasında qurulur. Konstitusiya Məhkəməsi müstəqil dövlət orqanıdır və təşkilati, maliyyə, habelə hər hansı başqa cəhətdən qanunvericilik, icra və digər məhkəmə hakimiyyəti orqanlarından, yerli özünüidarə orqanlarından, habelə hüquqi və fiziki şəxslərdən asılı deyildir. Hər hansı bir şəxs tərəfindən, hər hansı bir səbəbdən bilavasitə, yaxud dolayı yolla konstitusiya icraatına məhdudiyyət qoyulması, təsir, hədə və müdaxilə edilməsi, habelə məhkəməyə hörmətsizlik göstərilməsi yolverilməzdir və AR-in qanunvericiliyinə müvafiq surətdə məsuliyyətə səbəb olur (2).

Konstitusiya Məhkəməsi palatalarının iclaslarında AR Konstitusiyasının 130-cu maddəsinin III – VII hissələrində nəzərdə tutulmuş məsələlərə dair sorğuların, müraciətlərin və ya şikayətlərin icraata qəbul edilib-edilməməsi məsələsi həll olunur. Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında AR Konstitusiyasının 130-cu maddəsinin III – VII hissələrində nəzərdə tutulmuş məsələlərə dair Konstitusiya Məhkəməsinin icraatına qəbul edilmiş sorğulara, müraciətlərə və şikayətlərə mahiyyəti üzrə baxılır. AR Konstitusiyasının 84-cü maddəsinin I hissəsində, 86-cı maddəsində, 88-ci maddəsinin I hissəsində, 101-ci maddəsinin V hissəsində, 102-ci maddəsində, 104-cü maddəsinin II və III hissələrində, 107-ci və 153-cü maddələrində nəzərdə tutulmuş məsələlərə birbaşa Konstitusiya Məhkəməsi Plenumunun iclaslarında baxılır.

Konstitusiya Məhkəməsinin hakimləri müstəqildirlər, yalnız AR-in Konstitusiyasına və qanunlarına tabedirlər. Konstitusiya Məhkəməsi hakimlərinin müstəqilliyi onların səlahiyyət müddətində dəyişilməzliyi və toxunulmazlığı ilə, vəzifəyə təyin edilməsinin, məsuliyyətə cəlb edilməsinin, səlahiyyətlərinə vaxtından əvvəl xitam verilməsinin və vəzifədən kənarlaşdırılmasının xüsusi qaydası ilə, Konstitusiya Məhkəməsinə hörmətsizlik göstərilməsinin və ya onun fəaliyyətinə müdaxilə edilməsinin yolverilməzliyi ilə təmin olunur və onlara hakimlərin yüksək statusuna uyğun maddi və sosial təminatlar verilir.

Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizliklərdən) məhkəməyə şikayət edilməsi haqqında 11 iyun 1999-cu il tarixli Qanunu Konstitusiya və AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə təsbit edilmiş AR vətəndaşlarının hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən (hərəkətsizlikdən) məhkəməyə şikayət edilməsi qaydalarını müəyyənləşdirir, habelə vətəndaşların hüquq və azadlıqlarının məhkəmə təminatı ilə əlaqədar yaranan münasibətləri tənzimləyir. Müxtəlif növ maddi münasibətləri tənzimləyən digər qanunlar məsələn, "Müflisləşmə və iflas haqqında" Qanunda, "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda, AR Mülki Məcəlləsində, AR Ailə Məcəlləsində, AR Əmək Məcəlləsində və digər normativ hüquqi aktlarda çoxlu sayda mülki prosessual normalar nəzərdə tutulmuşdur.

Mülki-prosessual hüquq münasibətlərinin tənzimlənməsində Prezidentin fərman və sərəncamları da xüsusi əhəmiyyət kəsb edir. AR MPM-in təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında AR Qanununun tətbiq edilməsi barədə (22.01.2000); AR MPM-də dəyişiklik edilməsi haqqında AR Qanununun tətbiq edilməsi barədə (02.01.2003); AR MPM-ə dəyişikliklər və əlavələr edilməsi haqqında AR 2009-cu il 26 may tarixli 819-IIIQD nömrəli Qanununun tətbiq edilməsi barədə (22.06.2009) Prezident fərmanları müvafiq məsələləri tənzimləyir.

Prezidentin fərmanları ilə yanaşı, xüsusi məsələləri tənzimləyən sərəncamları da var. Bunların arasında AR MPM-də dəyişiklik edilməsi haqqında (02.01.2003); Məhkəmə qərarlarının icrası haqqında AR Qanununun tətbiqi ilə əlaqədar AR-in bəzi qanunvericilik aktlarına əlavələr və dəyişikliklər edilməsi barədə AR Qanununun tətbiq edilməsi haqqında (09.01.2003); AR MPM-də dəyişiklik edilməsi haqqında AR-in 2011-ci il tarixli 136-IVQD nömrəli; 143-IVQD nömrəli; 112-IVQD nömrəli; 250-IVQD nömrəli; 180-IVQD nömrəli qanunlarının tətbiqi barədə sərəncamları, həmçinin Dövlət rüsumu haqqında Ar Qanununda dəyişiklik edilməsi barədə AR-in 2012-ci il 20 aprel tarixli 342-IVQD nömrəli Qanununun tətbiqi haqqında sərəncamı və 19 iyun 2012-ci il tarixli AR MPM-də dəyişikliklər edilməsi haqqında AR Qanununun tətbiqi barədə sərəncamını qeyd etmək olar. Nazirlər Kabinetinin qərarlarına misal kimi Şahidlərə, ekspertlərə, mütəxəssislərə və tərcüməçilərə ödənilməli olan məbləğlərin miqdarı və verilməsi Qaydasının təsdiq edilməsi haqqında; Fiziki şəxs barəsində icra sənədi icra olunarkən tələbin yönəldilməsinə yol veril-

məyən əmlak növlərinin dəqiq Siyahısının təsdiq edilməsi barədə; Üzərinə həbs qoyulmuş əmlakın saxlanması Qaydasının və şərtlərinin təsdiq edilməsi barədə; Patent hüququnun girov qoyulması barədə müqavilələrin qeydiyyata alınması Qaydaları"nın təsdiq edilməsi haqqında qərarlarını göstərmək olar.

AR tərəfdar çıxdığı beynəlxalq müqavilələr və sazişlər də mülki prosessual hüququnun ümumi mənbəyinə aid etmək olar. AR Konstitusiyasının 151-ci, AR MPM-in 1.5-ci maddəsinə müvafiq olaraq AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə prosessual qanunvericilikdən fərqli qaydalar müəyyən edilərsə, beynəlxalq müqavilələrin qaydaları tətbiq edilir.

### ƏDƏBİYYAT


1. BMT Baş Məclisinin Məhkəmə orqanlarının müstəqilliyinin Əsas Prinsipləri haqqında 29 noyabr 1985-ci il tarixli 40/32 və 13 dekabr 1985-cil il tarixli 40/146 saylı qətnamələri.
2. Konstitusiya Məhkəməsi haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 23 dekabr 2003-cü il, № 561-IIQ.
3. Məhkəmələr və hakimlər haqqında Azərbaycan Respublikası Qanunu. Bakı, 10 iyun 1997-ci il, № 310-IQ.
4. Абросимова Е.Б. Судебная власть. Комментарий к Конституции РФ. Под общ. ред. В.Д.Карповича. М., 2002.
5. Баглай М.В., Габричидзе Б.Н. Конституционное право РФ. М., 1996.
6. Боннер А.Т. Принципы гражданского процессуального права (проблемы и перспективы). Проблемы защиты прав и законных интересов граждан и организаций. Материалы практической конференции. Краснодар: 2002.
7. Мовсумов М.А. Гражданское процессуальное право Азербайджана и России: Опыт системного и сравнительно-правового анализа: Дис. ... д-ра юрид. наук: 12.00.15. СПб.: 2005.


## СИСТЕМА И ПРИНЦИПЫ ГРАЖДАНСКО-ПРОЦЕССУАЛЬНОГО ЗАКОНОДАТЕЛЬСТВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ


**Х.Р.ГОДЖАЕВ**


### РЕЗЮМЕ


В статье система и принципы гражданско-процессуального законодательства Азербайджанской Республики подробно анализируется на основе существующих в правовой литературе разногласий и внутригосударственного законодательства Азербайджанской Республики. Отмечается, что, так как гражданско-процессуальное право является составной частью внутригосударственного права, его система также должна рассматриваться с точки-зрения нормативно-правовых актов, являющихся составными частями именно внутригосударственного права. В данном контексте автор уделяет особое внимание подробному исследованию Конституции Азербайджанской Республики, гражданского и гражданско-процессуального кодексов, законов, указов президента, решений Кабинета Министров и положений международных договоров.



**Ключевые слова:** гражданско-процессуальное законодательство, конституция, решение, международный договор, указ, кодекс, права и свободы, суд первой инстанции, закон

## SYSTEM AND PRINCIPLES OF LEGISLATION ON CIVIL PROCEDURE OF THE REPUBLIC OF AZERBAIJAN

**Kh.R.GODJAYEV**

**SUMMARY**

In this paper the system and principles of the legislation on civil procedure of the Republic of Azerbaijan are analyzed in detail on the basis of existing disputes in the legal literature and domestic legislation of the Republic of Azerbaijan. It is noted that, since the civil procedural law is a part of domestic law, its system must also be considered from the point of view of legal acts that are components of domestic law. In this context, the author focuses on a detailed study of the Constitution, Civil and Civil Procedural Code, laws, decrees of the President, decisions of the Cabinet of Ministers and international treaties.

**Keywords:** civil procedural law, constitution, decision, international agreement, decree, code, rights and freedoms, the Court of First Instance, law